*Əliyeva Afaq.Yeni tip salnamələrin yaradıcısı*
*// Elmi əsərlər,2020,2(11),iyul-dekabr, s.18-22.*

UOT 821.512.162

**Əliyeva Afaq,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26.*
e-mail: afaq23@mail.ru

# YENİ TİP SALNAMƏLƏRİN YARADICISI

*(Azərbaycan Milli Mətbuatın 145 illiyi münasibətilə)*

**Açar sözlər:** *Qulam Məmmədli, publisist, mətbuat, nəşrlər.*

**Giriş.** *Məqalədə 97 il ömür sürmüş, dövrünün ağrı-acısını yaşamış Q.Məmmədlinin (1897-1994) ədəbiyyat, mətbuat və teatr tarixi bilicisi kimi mətnşünaslıq, salnaməçilik, təzkirəçilik, publisistik fəaliyyətindən bəhs olunur. Həmçinin Milli Mətbuatın inkişafı naminə gələcəkdə də Zərdabi ənənələrinin layiqincə davam etdirilməsinin vacibliyini vurgulayan Q.Məmmədlinin özünün bu sahədəki müstəsna xidmətlərindən danışılır.*

Dövrünün mürəkkəb ictimai-siyasi hadisələrinin canlı şahidi, milli-mədəni irsimizin tədqiqi, toplanılması, nəşri və təbliği sahəsində müstəsna xidmətləri olan ədəbiyyat, mətbuat və teatr tarixi araşdırıcısı, mətnşünas, salnaməçi, təzkirəçi, biblioqraf, nasir, publisist kimi çoxşaxəli fəaliyyət göstərən Qulam Məmmədli 1897-ci il martın 25-də Təbrizdəana-dan olmuşdur. Hələ uşaq ikən tale onu Təbrizdən Aşqabada aparmış, yaşına sığmayan güzəran qayğıları onu adi təhsil almaq imkanından belə məhrum etmişdir. "Özünün söylədiklərindən: "...Ağlım kəsəndən, arada bir fikirləşirdim ki, adımı Qulaməli niyə qoyublar görəsən? Sonra başa düşdüm ki, demə, o vaxt Cənubda oğlan uşaqlarının çoxuna əsasən Qulam, Hilal, Bilal, Əhməd, Həsən adları qoyurdular ki, qul alveri bazarında ad da xoşa gəlsin. ...Ona görə hər ehtimala qarşı mənə Qulam adı veriblər. O vaxt Asiya və Zaqafqaziya müsəlmanlarını İran ziyarətgahına aparan baş yol Xəzər dənizinin liman şəhərlərinə gətirib çıxarırdı. Liman şəhərlərində bir qayda olaraq, həmişə qul alveri olurdu... Nə yaxşı ki, tale mənim üzümə güldü, həmin limanda dəmirçi Hüseyn ağa xarici görkəmimi görüb özünə şəyird götürdü. Dəmirçinin yanında güzəranım o qədər də asan deyildi" (1). "Mənim savadlanmaya, qəzetə gedən yolum da o dəmirçi dükanından başladı. Usta Hüseyn ağa və onun dəmirçi dostları pul yığıb Bakıdan göndərilən "Səda" qəzetini alıb oxuyurdular. Əlbəttə, ustalar savadsız idi, qəzeti onlar üçün mən oxuyurdum" (2).

Nə yaxşı ki, Tanrının seçilmişlərinə qismət etdiyi nadir, qeyri-adi fitri istedadı, zəhmətsevərliyi, fədakarlığı sayəsində o, sözün tam mənasında dövrünün son dərəcə sanballı, seçilən alimi, qabaqcıl ziyalısı, vicdanlı və ləyaqətli vətəndaşı olmağı bacarmışdır. Elmi dərəcəsi, ali, hətta orta təhsili olmayan Q.Məmmədlinin bu dəyərləri onu müasirlərinin və bugünkü nəslin kimsəyə bənzəməyən və kimsə ilə müqayisəsi mümkün olmayan ustadı – "Qulam müəllimi" etmişdir. Həmişə "mən gözləməyi və vaxt itirməyi xoşlamıram" deyən Qulam müəllm yaşadığı ömrün nəinki hər ilindən, hər ayından, hətta hər günündən belə bir qənimət – ömrün son günü kimi yararlanmağa tələsmişdir.

1914-cü ildən Aşqabadda nəşriyyat və mətbuat aləminə adi köməkçi kimi daxil olan Q.Məmmədli sonralar mürəttib olmuş, 16-17 yaşlarından Bakıda Cəfər Bünyadzadənin redaktorluğu ilə nəşr olunan "Tuti" satirik məcmuəsində və Aşqabaddakı "Mavərayi-bəhri

Xəzər" qəzetində ilk yazılarını dərc etdirmişdir. İllər keçdikcə mürəttiblikdən, kiçik müxbirlikdən başlanan bu yol onu "Kəndçi qəzeti", "Yeni yol", "Kommunist", "Vətən yolunda", "Azərbaycan kolxozçusu", "Kirpi" və sair mətbuat orqanlarında peşəkar jurnalist kimi redaktorluğa qədər ucaltmışdır.

Q.Məmmədli tərcümeyi-halında yazır: "1923-cü ilin iyun ayında Bakıya gəlib "Kommunist" qəzetinin çap olunduğu "III İnternasional" mətbəəsində mürəttib işləmiş və burada Ordubadi, Cabbarlı, Məmmədəli Sidqi, Seyid Hüseyn və başqaları ilə tanış olmuşam, "Molla Nəsrəddin"in həm mürəttibi, həm müxbiri olub Mirzə Cəlil ilə tanış olmuşam. 1924-27-ci illərdə Teatr Texnikumunda oxumuşam.

...40-dan çox əsərim çap edilmişdir ki, bunların da dəqiq siyahısı Moskvada Lenin adına kitabxanada vardır... 800-dək məqələmin siyahısı özümdə vardır" (3). Bu tərcümeyi-hal 1979-cu ildə yazılmış, Qulam Məmmədli isə 15 il sonra – 1994-cü ildə dünyasını dəyişmişdir.

Q.Məmmədli nəşrə hazırladığı təzkirə, biblioqrafik göstərici, salnamələrin materiallarının toplanılması prosesində ədəbiyyat, teatr, mətbuat tarixi ilə bağlı əldə etdiyi hər yeni tapıntını, naməlum faktı elmi ictimaiyyətə ilk olaraq "Axtarışlar, tapıntılar", "Açılmamış səhifələr" və sair rubrikalar altında mətbuat vasitəsilə çatdırırdı. 1941-1946-cı illərdə Tiflisdə və Təbrizdə "ordu qəzetlərində" işləyən Q.Məmmədli həm də "ədəbiyyat tədqiqatı ilə məşğul olmuş" və qısa müddətdə əldə etdiyi zəngin materiallar onu mətnşünas kimi fəaliyyət göstərməyə yönəltmişdir. Bu sahədə ona əsas işi ticarət olsa da, ömrü boyu öz vəsaiti hesabına fars, ərəb və türk (Azərbaycan) dillərində ümumi sayı 3692 nadir əlyazma və çap kitabları toplayan, bu məqsədlə Avropa, Asiya və Afrika ölkələrinə – Misirə, Türkiyəyə, Hindistana, Orta Asiyaya səfərlər edən, İranın müxtəlif şəhərlərini gəzən Hacı Məhəmməd ağa Naxçıvani (4, s. 434) yardımçı olmuşdur. "Heyran xanım" (1951), "Mirzə Əli Möcüz. Seçilmiş əsərləri" (1954), Fədainin "Bəxtiyarnamə"si (1945, 1957) və s. bu illərin ilk mətnşünaslıq işləridir. "İran Azərbaycanının müasir şairləri", "Səttar xan" şeirlər toplusu, "Xiyabani", "Cənubi Azərbaycan şairləri antologiyası", Qılman İlkinlə birgə tərtib etdiyi "Qızıl səhifələr" sənədlər toplusu, "Atmacalar", "Əliağa Vahid. Seçilmiş əsərləri", "Qapı oğrusu", "Məhəmmədəli Mənafzadə Sabit. İbrət güzgüsü: Şeirlər, hekayələr və məqalələr" və s. əsərlərin tərtibi və nəşri də mətnşünaslıq işinin davamıdır.

Q.Məmmədlinin elmi yaradıcılığının çox böyük hissəsini onun salnaməçilik fəaliyyəti təşkil edir. Görkəmli ədəbiyyatşünas, AMEA-nın müxbir üzvü Əziz Mirəhmədov böyük qədirşünaslıqla bu salnamələri "Azərbaycan ədəbiyyatı, ictimai fikri, teatr və mətbuatı tarixinə dair tədqiqatlarda daxili keyfiyyət dəyişiklikləri yaradan" (5, s. 4), professor Solmaz Rüstəmova-Tohidi isə "istər adı çəkilən salnamələri, istərsə də digər kitabları xalqımızın yalnız ədəbi-mədəni irsinin deyil, tarixinin öyrənilməsi üçün də qiymətli bir mənbə" (6, s. 5) kimi dəyərləndirmişlər.

Q.Məmmədlinin hələ sağlığında muzeyə bir eksponat kimi verib (7), qorunub saxlanılmasını xahiş etdiyi "Azərbaycan teatr salnaməsi" kitabının şəxsi nüsxəsinin üzərində Süleyman Rüstəm, Rəsul Rza, Nigar Rəfibəyli, Abbas Zamanov, Əziz Şərif, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Niyazi, Fikrət Əmirov və başqaları tərəfindən edilən qeydlərdə Q.Məmmədli əməyi yüksək qiymətləndirilmişdir.

Onun bütün elmi yaradıcılığı, o sıradan teatr xadimləri haqqında digər salnamələri kənara qoyulmuş olsa belə, haqqında danışılan təkcə bu salnamə ilə teatrşünas alim kimi tanınan və yaddaşlarda yaşayan Q.Məmmədli "bəlkə heç özü də bilmədən Azərbaycan teatrşünaslığına yeni nəfəs gətirmiş", əldə etdiyi – bir çox mənada özümüzü özümüzə tanı-

dan naməlum yeni fakt bolluğu ilə nəinki dövrün teatrşünaslığını heyrətləndirmiş, həm də mövcud "ideologiyalı elmin eyblərinin" (8) açılıb üzə çıxarılmasına nail olmuşdur.

Cəmi dörd sinif mollaxana təhsili almış Q.Məmmədli bu uğurlara necə nail ola bilmişdir? İlk növbədə yaşadığı mühiti, əhatəsində olan vətənsevər ziyalı müasirləri, onlarla ünsiyyət yarada bilmək bacarığı, çox erkən yaşlarından müəyyənləşdirdiyi məqsədi, inadkarlığı, özünə inamı, zəhmətsevərliyi və bütün bunların sayəsində qazandığı etimadı ilə. Bu etimad hesabına mətbəədə adi "sözyığanlıqdan" – mürəttiblikdən başlanan həyat yolu AMEA Tarix İnstitutunda, daha sonralar Ədəbiyyat və İncəsənət Dövlət Arxivində davam etmiş, bu isə ona məqsədinə çatmaq üçün xatirələrində özünün dediyi kimi "əl-qol açmağa" imkan yaratmışdır.

Q.Məmmədlinin müəllifi olduğu əsərlərinin çox böyük hissəsi – "Molla Nəsrəddin. Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətinin salnaməsi (1866-1932)" (1966, 1984), "Hüseyn Ərəblinski. Aktyorun həyat və fəaliyyətinə dair sənədlər məcmuəsi" (1967), "Cahangir Zeynalov. Həyat və yaradıcılığı haqqında sənədlər" (1968), "Üzeyir Hacıbəyov (albom kitab)" (1975, 1985 müştərək), "İmzalar" (1977), iki cilddə "Azərbaycan teatrının salnaməsi (1850-1920)" (1975), "Azərbaycan teatrının salnaməsi (1920-1930)" (1983), "Cavid – ömrü boyu. Həyat və yaradıcılıq salnaməsi (1882-1941)" (1982), "Üzeyir Hacıbəyov (1885-1948). Həyat və yaradıcılığının salnaməsi" (1984), "Abbas Mirzə Şərifzadə" (1985), "Nəriman Nərimanov (1870-1925). Həyat və yaradıcılığının salnaməsi" (1987), "Sizə kim lazımdır? (biblioqrafik məlumat kitabı)" (1990) kimi salnamə və biblioqrafik göstəriciləri onun saglığında nəşr olunmuşdur. "Bilik" cəmiyyəti xətti ilə nəşr olunan "Klassik Azərbaycan ədəbiyyatında ateizm motivləri" (1958), "Ateistin cib lüğəti" (1962) və "Tüfeyli ocaqları" (1963) da müəllifin sağlığında nəşr etdirdiyi kitablar sırasındadır. Bu kitabların bəziləri Qulam müəllimin sağlığında və dünyasını dəyişdikdən sonra təkrar nəşr olunmuşdur. Q.Məmmədli kitablarının gələcəkdə təkmilləşdirilərək nəşr edilməsinin vacibliyini xatirələrində təvazökarcasına belə izah etmişdir: "Bir çox oxucularıma elə gəlir ki, mənim 1966-cı ildə çap elətdirdiyim "Molla Nəsrəddin" kitabım Mirzə Cəlilin həyat və fəaliyyətinə aid mükəmməl bir əsərdir. Yox, belə deyildir! Kitab çap olunandan sonra tədqiqatı davam etdirəndə mənə aydın oldu ki, Mirzə Cəlilin fəaliyyətinə aid o kitabda bir sıra məsələlərin izahında natamamlıq, yanlışlıq, ya da heç açılmamış cəhətlər vardır. Ərəblinski də bu ayaqdan, Cahangir Zeynalov da və başqaları da. "İmzalar" kitabındakı naməlum, örtülü, gizli imzaların da miqdarının az qala iki min əlavəyə ehtiyacı var..." (9, s. 154). Qulam müəllimin özünün xüsusi qeyd etdiyi kimi "əlavəyə ehtiyacı" olan "İmzalar" kitabı Milli Mətbuatın 140 illiyi münasibəti ilə 2015-ci ildə tərəfimizdən təkmilləşdirilərək yenidən nəşr edilmişdir. İki hissədən ibarət kitabın I hissəsinə daxil olunan Q.Məmmədlinin "İmzalar" kitabı kirildən latın əlifbasına transliterasiya edilmiş, düzülüşü Azərbaycan əlifbasına uyğun şəkildə verilmiş, mətndəki mətbuat orqanlarının adlarında olan müxtəliflik və natamamlıq aradan qaldırılmış, imza müəlliflərinin ad və soyadları üzərində də dəqiqləşmələr aparılmışdır. Q.Məmmədlinin kitaba verdiyi elmi-məlumatlandırma aparatı – "Bir neçə söz" və "Əlavələr" bölməsi olduğu kimi yeni nəşrin bu hissəsində özünə yer almışdır. Kitabın II hissəsində isə tədqiqatçıların biblioqrafiyadan istifadəsini asanlaşdırmaq məqsədilə əvvəlcə müəlliflərin ad və soyadları, daha sonra isə hər bir müəllifə aid edilən imzalar əlifba ardıcıllığı ilə verilmişdir. Bu hissədə "İmzalar" kitabının ilk nəşrindən günümüzə qədər olan tədqiqatlar, ensiklopediyalar nəzərdən keçirilmiş, şəxsi arxiv və digər elmi-biblioqrafik sənədli mənbələrdən, yeni nəşrlər, onlara verilən izah, şərh və qeydlərdən əldə olunan 800-ə yaxın yeni müəllif və gizli imzalar mətnə ulduz işarəsi ilə əlavə olunmuşdur. Təbii ki, zaman keçdikcə, tədqiqatlar aparıldlqca bu nəşrin də gələcəkdə təkmilləşdidrilməsinə ehtiyac olacaqdır.

Bir insan ömrünə sığmayan zəngin və çoxşaxəli yaradıcılıq yolu keçən Q.Məmmədlinin fəaliyyət dairəsinin qeyri-adi üstünlüyü onun eyni zamanda həm yazıçı və jurnalist, həm mətnşünas və arxivşünas, həm teatrşünas və salnaməçi, həm biblioqraf və təzkirəçi, həm də mətbuat tarixinin bilici olmasıdır. Qulam müəllim yazdığı yeganə dissertasiyaya görə cibində bir ömür alimlik diplomu gəzdirən "alim" deyildi. Onun hər salnaməsi ayrı-ayrılıqda alimlik dərəcəsi diplomu fövqündə duran sanballı elmi əsər idi. Q.Məmmədlinin özü də elmin xiridarı, mətbuat tarixinin əzəmətli ustadı idi. Bu dəyərləri onu bu gün də elmi ictimaiyyətin yaddaşında sözün tam mənasında "Qulam müəllim" kimi yaşatmaqdadır. Bu baxımdan, Q.Məmmədlinin hər bir elm adamına örnək ola biləcək həyatının müxtəlif dövrləri, yaradıcılığının çoxşaxəli sahələrinin hər biri ayrı-ayrılıqda monoqrafik tədqiqat mövzusu kimi işlənməyə layiqdir.

Bu gün Qulam müəllimin vəfatından 26 il ötür. Bu zaman ərzində onun həyat və fəaliyyəti haqqında yazılmış çoxsaylı məqalələrlə yanaşı, iri həcmli işlər də görülmüşdür. Q.Məmmədlinin AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda özünün topladığı, lakin sağlığında nəşrinə müvəffəq olmadığı iri həcmli təzkirəsi filologiya üzrə fəlsəfə doktoru A.Rəhimova tərəfindən ərəb əlifbasından transfoneliterasiya edilərək 2012-ci ildə "Qulam Məmmədli təzkirəsi" adı ilə nəşr olunmuşdur. 2016-cı ildə Qulam Məmmədlinin xatirələri əsasında tarix elmləri doktoru S.Rüstəmova-Tohidinin nəşrə hazırladığı "Qulam Məmmədli. Ömür dəftərindən səhifələr (1897-1977). Xatirələr. Görüşlər. Müşahidələr" kitabı müasir oxucuya təqdim edilmişdir. Bu işin davamı olaraq, 2017-ci ildə Q.Məmmədlinin anadan olmasının 120 illik yubileyi münasibətilə onun AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunan şəxsi arxiv materialları əsasında filologiya üzrə fəlsəfə doktoru A.Əliyeva (müştərək) tərəfindən "Qulam Məmmədli arxivinin təsviri" kitabı nəşr edilmişdir.

Bu il Azərbaycan Milli Mətbuatının 145 illiyidir. Bu yubiley ərəfəsində mətbuat fədailərimizdən biri – Azərbaycan KP MK Nəzarət Komissiyası Rəyasət Heyətinin üzvü (1928-1934), Azərbaycan KP MK Plenumu üzvlüyünə namizəd (1934-1937), Bakı şəhəri Oktyabr rayonu Xalq Deputatları Sovetinin deputatı (1935-1937), Azərbaycan Yazıçılar İttifaqının üzvü (1950), Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl qələm" mükafatı laureatı (1972), Əmək veteranı (1976), Azərbaycanın Əməkdar Mədəniyyət işçisi (1977), Azərbaycanın Əməkdar jurnalisti (1984), İttifaq əhəmiyyətli təqaüdçü (1987), M.F.Axundov adına ədəbi mükafat laureatı (1989) və digər təltiflərə layiq görülmüş Qulam Məmmədlini xatırlamamaq günah olardı. Qulam müəllim ömrünün son günlərində demişdir: "Bizim mətbuatın Həsən bəy Zərdabi ənənələri var. Gərək o şəxsiyyətlərin adına, əməlinə layiq nümunələr yarada bilək. Yoxsa, bu çətin yolu sona qədər davam etdirmək asan olmaz. İnanıram ki, bizim başladığımız ənənələr uzun illər dəyərini itirməyibsə, varislərimiz də bu yolu ləyaqətlə davam etdirəcək...

Azərbaycan mətbuatı uğurlu bir yol üstədir. İnanıram ki, gələcək nəsil bizdən qalan ənənələri daha da inkişaf etdirəcək, yeniliklər gətirəcəklər. Gərək bu sahədə çalışan hər kəs ona cəhd etsin ki, köhnə ənənələr dəyərdən düşməsin, əksinə, bu böyük xalq sərvətinə ciddi əlavələr olunsun. Onda inkişafdan arxayınlıqla danışmaq olar" (10).

***Nəticə.*** Göründüyü kimi, zəngin və çoxşaxəli yaradıcılıq yolu keçən Q.Məmmədlinin fəaliyyət dairəsinin qeyri-adi üstünlüyü onun eyni zamanda həm yazıçı və jurnalist, həm mətnşünas və arxivşünas, həm teatrşünas və salnaməçi, həm biblioqraf və təzkirəçi, həm də mətbuat tarixinin bilici olmasıdır. O, elmin xiridarı, mətbuat tarixinin əzəmətli ustadı idi. Bu dəyərləri onu bu gün də elmi ictimaiyyətin yaddaşında sözün tam mənasında "Qulam müəllim" kimi yaşatmaqdadır.

**Ədəbiyyat:**

1. Rəhimqızı S. Fədakarlıq // "Azərbaycan" qəz., 1997, 14 mart.
2. Yusifli V. Unudulmaz Qulam Məmmədli: İnsan-Ensiklopedya // "525-ci qəzet", 2015, 16 noyabr.
3. AMEA Əlyazmalar İnstitutu. Q.Məmmədlinin şəxsi arxivi. Fond – 31, s.v. 27.
4. Naxçıvan ensiklopediyası. Bakı: AMEA, 2002, 598 s.
5. Mirəhmədov Ə. Redaktordan //Məmmədli Q. Molla Nəsrəddin. Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətinin salnaməsi (1866-1932). Bakı: Gənclik, 1984, s. 3-6.
6. Rüstəmova-Tohidi S. Ön söz // Məmmədli Q. Ömür dəftərindən səhifələr (1897-1977). Xatirələr. Görüşlər. Müşahidələr. Bakı: Təhsil, 2016, s. 3-18.
7. Rəhimqızı S. Bir kitab var... // "Xalq qəzeti", 1997, 25 mart.
8. İsmayıloğlu A. Teatrşünaslığımızın tarixindən // "Ədəbiyyat qəzeti", 2013, 8 fevral.
9. Məmmədli Q. Ömür dəftərindən səhifələr (1897-1977). Xatirələr. Görüşlər. Müşahidələr". Bakı: Təhsil, 2016, 184 s.
10. Şərifli B. Mətbuat fədaisi Qulam Məmmədli ilə sonuncu görüş // "Azərbaycan" qəz., 2018, 22 iyul.

***Алиева Афаг***

**СОЗДАТЕЛЬ ЛЕТОПИСЕЙ НОВОГО ТИПА**

(По случаю 145-летия Национальной прессы Азербайджана)

**Резюме**

В статье рассматриваются текстологическая, летописная и публицистическая деятельность Г.Мамедли (1897–1994), который прожил 97 лет и пережил трудности своего времени, как знаток истории литературы, прессы и театра.

Здесь также, мы расскажем об исключительных услугах Г.Мамедли, который видел развитие национальной прессы в будущем только в достойном продолжении традиций Зардаби.

**Ключевые слова:** *Гулам Мамедли, публицист, пресса, издания.*

***Aliyeva Afag***

**CREATOR OF CHRONICLES OF A NEW TYPE**

(On the occasion of the 145th anniversary of the National Press of Azerbaijan)

**Summary**

The article examines the textual, chronicle and journalistic activities of G.Mammadli (1897–1994), who lived 97 years and survived the difficulties of his time, as an expert on the history of literature, the press and theater.

Here we will also talk about the exceptional services of G.Mammadli, who saw the development of the national press in the future only in a worthy continuation of the Zardabi traditions.

**Key words:** *Gulam Mammadli, publicist, press, publications.*

*Redaksiyaya daxil olma tarixi: 13.10.2020*
*Çapa qəbul olunma tarixi: 27.10.2020*

*Filologiya elmləri doktoru Nailə Səmədova*
*tərəfindən çapa tövsiyə olunmuşdur.*